# Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Ədalət.S.7.

№ 156 (2004) 15 oktyabr 2019-cu il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az


# Xurşidbanu Natavan həyatı və yaradıcılığı fonunda

**(əvvəli ötən saylarımızda)**

Şeirini "Ey sərxoş Asi, Əli oğlu Hüseynə Yəzdgürd şahın qızının nə üçün əl verdiyini bilirsənmi?" sualı ilə davam etdirən S.Ə.Şirvani "Seyidin də haman nəsildən olduğunu" xatırladır və daha da açıq bir şəkildə fikrini ifadə edirdi:

**Bu haman xan qızıdır kim, buna yox şübhəvü şəkk**  
**Eləyibdir neçə pambıq satanı dəhrdə bəg.**  
**Asiya, söylə, itirmək nə rəva həqqi-nəmək?**  
**Bəli, adət belədir kim, ola hər kəs eşşək**  
**Yesə hər kəslə nəmək, sonra nəməkdanə dəyər.**

(Bax.Seyid Əzim Şirvani. Əsərləri, II cild. 652 s. Bakı,  
Azərbaycan SSR EA Nəşriyyatı,1969. Səh.158)

"Biz Qarabağ əhlinin qeyrət çəkən olduğunu eşitmişdik, bir-birini gözləyən olduğunu da bilirdik, amma səndə bunların tam əksini gördük, öz əhlinizi həcv etdiyinizin" şahidi olduq deyən S.Ə.Şirvani daha sərt mövqe tutur.

**Asiya, gərçi müzəkkər görünürsən, dişisən.**  
**Aləmi-xakdə növi-bəşərin iymişsən.**  
**Bisəbəb tutdum, əzizim, nə üçün bu işi sən?**  
**Yoxmu qeyrət əsəri səndə, sən axır kişisən!**  
**Həcvi- zən eyləməyin şiveyi-mərdanə dəyər**

(Bax.Seyid Əzim Şirvani. Əsərləri, II cild. 652 s. Bakı,  
Azərbaycan SSR EA Nəşriyyatı,1969. Səh.158)

"O, qadın olsa da, yeganə qadındır ki, qadınlığı ilə bəzi kişilərdən əladır, o biri ali-nəsəb bir seyiddir, Ağaseyiddir" deyə sözünə davam edən Seyid Əzim:-Ey şair, həcv demək hörmət-izzət gətirmir, həcvə adət eləmək şairi ucaltmır, o sadəcə şeirdir-yaxşısı da olur, yamanı da - ayə deyil" deyə Abdulla bəy Asiyə kim olduğunu xatırladır:

**Gör səni kim bəy edibdir, bir utan adından!**  
**Yoxsa, Asi, çıxıb əyyami- sələf yadından?**  
**Bir xəbər tut soruşub haləti-əcdadından,**  
**Get, xəcalət çəkəsən, şərm elə ustadından**  
**Ki, sənin bu əməlin şiveyi-şeytanə dəyər.**

(Bax.Seyid Əzim Şirvani. Əsərləri, II cild. 652 s. Bakı,  
Azərbaycan SSR EA Nəşriyyatı,1969. Səh.159)

Natəvanı Seyidə ərə getmək üstündə həcv edən Mirzə Rəhim Fənaya da eyni kəskinliklə cavab verən S.Ə. Şirvani " boş şeylərə heç kəsdə olmayan bir həvəslə girişən, özü şiə ikən pis işlərə həvəs göstərən şairi" Abdulla bəy Asi sayağı həcv yazdığına görə məzəmmət edir və qınayırdı. "Mərdanə şəkildə" comərdliyini göstərən bir qadına dalını- qabağını gözləmədən həcv yazan şairi də arvad xisləti" hesab edən Ş.Ə. Şirvani təəssüf hissi ilə yazıdrı:

**Səd heyf, Şişə sakinidir ol pəri-cəmal,**  
**Tuti olubdu, heyf, qürab ilə həm qəfəs.**  
**Mülki-fənadə fani olaydı Fəna, əgər**  
**Bəzmi-bəqayə can ilə rağıb olurdu bəs.**

(Bax.Seyid Əzim Şirvani. Əsərləri, II cild. 652 s. Bakı,  
Azərbaycan SSR EA Nəşriyyatı,1969. Səh.170)

Bütün bu reallıqlarla yanaşı X.Natəvan incikəni əri Ağaseyid Hüseynin məsləhəti və tövsiyyələri ilə bir çox ehsanlar vermişdir ki, onlardan biri də "Şuşa qalasına ətraf bulaqlardan külli xərclər tökub su çıxartmaq olubdur və bu xeyir iş ittifaq düşübdür 1290-cı (Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild.460 s. Bakı, "Elm", 1981. Səh.153-154) sənələrdə". Sarı Baba deyilən yerdən Şuşaya çəkilən su kəməri el arasında "Xan qızı bulağı"adı ilə məşhurdur.



Altıkilometrlik məsafədən Şuşaya gələn bu su kəmərinin çəkilişi bəzi mənbələrdə 1872 (Bax. Azərbaycan ədəbiyyat tarixi, 3 cilddə, II cild. Bakı Akademnəşr", 1960. Səh. 161), bəzilərində isə 1878-ci il (Bax. Yaşar Qarayev. Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər. 740 s.Bakı, "Elm", 2002. Səh. 211) tarixləri ilə göstərilir. Hər halda F.Köçərlinin göstərdiyi kimi hicri 1290, yəni miladi tarixlə 1872/73 tarixi daha doğrudur -V. As. X.Natəvanın o illərdə yollar çəkdirib, körpülər saldırdığı, məktəblər və məscidlər tikdirdiyi də qeyd olunmaqdadır.

***

Ədəbi yaradıcılığa 1850-ci illərdən başlayan X . Natəvanın 1872-ci ildən "Məclisi-üns"ü sarayına köçürməsi ilə ədəbi yaradıcılığının ən məhsuldar dörü başlayır. Əlbəttə ki hələ 1850-ci illərdən X. Natəvanın Q. Zakirlə, M.F.Axundovla şəxsi tanışlığı var idi. X. Natəvan bir çox şairlərlə şeirləşirdi. Lakin bu müaşirələr klassik ədəbi çərçivədən kənara çıxmırdı. Hələ Azərbaycan şairləri qələmlərini farscada və ərəbcədə sınamaqda idilər. X. Natəvanın xanlıq möhründə Cəfərqulu xan Nəva tərəfindən

**Neşnəd bamələk zanibezanu**  
**Kənize fatime Xurşidbanu**  
**(Fatimənin kənizi Xurşidbanu**  
**Mələklə diz-dizə əyləşir.)**

(Bax. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı.  
II cild.460 s. Bakı, "Elm", 1981. Səh.157)

beytinin farsca yazılması da bu fikri təsdiq edir. Bununla belə, X.Natəvanla bağlı ədəbi çevrə 1872-ci ildən sonra daha da genişlənir. Qələmin mürəkkəblə izdivacından yaranan mövzular çox hallarda klassik ədəbi janrın təqlidi və təkrarı şəklində olsa da, "Məclisi-üns" istedadların üzə çıxmasında xüsusi rol oynayır, müsahibə, mübahisə və ədəbi mübadilə meydanına çevrilirdi. Mirzə Həsən Yüzbaşov (1824, Şuşa - 1904, Şuşa) X.Natəvanın "Məclisi-üns"ə gəlişini belə mənalandırırdı:

**Lütf edib "Məclisi-üns"ü çün ağa yad etmiş,**  
**Bizi bu yad ilə qəmdən əcəb azad etmiş.**

**"Məclisi üns" nə müddətdi ki, viranə idi.**  
**Şükürlillah kim, onu təzədən abad etmiş.**

**Natəvanın mədhini zikr etməyə hər şamü səba**  
**Həsəni rüzi-əzəl həqq özü irşad etmiş.**

(Bax. Poetik məclislər. Tərtib edəni: Nəsrəddin Qarayev.  
Bakı, "Yazıçı", 1987.Səh.193)

Orada ayrı-ayrı ədəbi məclislərdən gələn məktublar da oxunur və müzakirə edilirdi.

Yenə çox təəssüflər olsun ki, o zaman hansısa bir qafiyə üzərində qəzəl, qəsidə, müxəmməs və s. inşa etmək dəbdə idi - bir sözlə, inşaatçı şairlər baş alıb gedirdi.

Belə bir şüur və düşüncə dairəsində diqqətəşayan əsərlər yaratmaq əlbəttə ki, zor iş idi.

X.Natəvanın şeirlərinin çoxu itmiş, azı gəlib bizə çatmışdır. Lakin sayca az olan bu şeirlər X.Natəvanın ədəbi zövqü, düşüncəsi və dünyagörüşü haqqında fikir söyləmək imkanı yaradır.

X.Natəvandan bəhs edən müəlliflər onun yaradıcılığının "hüzn, şikayət, giley" lirikasından ibarət olduğunu iddia etsələr də və bu iddialarında müəyyən qədər haqlı olsalar da, X.Natəvan yaradıcılığı həm də zövq və şövq, yaşantı lirikasıdır.

Bir çox məqamlarda X.Natəvan "Xan qızı, el anası, ayrılıq əzabı, vüsal həsrəti ilə yanıb- yaxılan məşuqə" (Yaşar Qarayev.

Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. 740 s.Bakı, "Elm", 2002. Səh. 213) kimi səciyyələndirilir. Şəxsən mənə görə X. Natəvan həm də sevəsevə, sevilə-sevilə yaşamağa aşiq olan aşiqədir - V.As.

O baş-başa verməklə ikilikdəki söhbətin şirinliyini, aşiqanə ərkdən sonrakı minnətin ləzzətini yaşayan aşiqədir.

**Mümkün olmadı səninlə bir söhbət eyləmək,**  
**Əğyardan kənara çəkib, xəlvət eyləmək**

**Gah dişləyib dodağını, azurdədil edib,**  
**Gahi durub ayağə, sənə minnət eyləmək.**

**Gah nazənini özünə çəkib niyaz ilə,**  
**Xişm eylədikdə səbahə dözüb, taət eyləmək.**

**Var bir vəsiyyətim sənə, ey şahi-gülruxan,**  
**Şərhində yoxdur məndə vəli cürət eyləmək.**

**Əğyardan kənara durub, şad qıl məni,**  
**Əğyar ilə məbadə gedib ülfət eyləmək.**

**Zinhar, unutma eylədiyin əhdi bir zəman,**  
**Yazımdı əhdi gözətməyə diqqət eyləmək.**  
**Qəmzən oxunu, kəsmə dili Natəvandan,**  
**Gər istəsən həmişə məni rahət eyləmək.**

(Bax. Sevdiyim şeirlər. I cild. Tərtib edəni: Cahangir Qəhrəmanov.248 s. Bakı, "Gənclik", 1978.Səh.,158.)

**Bu bir həqiqətdir ki, kişi və qadın olmağından asılı olmayaraq, hər hansı bir insan bir insan kimi neçəneçə yerə bölünür-həm ata-ana, həm böyük-kiçik, həm cəmiyyətin bir üzvü , həm də şəxsiyyət kimi bir çox funksiyaları yerinə yetirir. Qadın kimi, ana kimi, Xan qızı kimi görüntülərindən daha çox şair kimi görünən və yaddaşlara həkk edilən, X. Natəvanın öz müasirlərinə güclü təsiri olmuşdur desək, yanılmarıq. İlki general rütbəli Mehdiqulu xan Xasay xan oğlu İsmiyevin dövlət qulluğunda çalışıması, əsasən Tiflis və Şimali Qafqazda yaşaması övladını tez-tez görmək istəyən ananın ürək çırpıntılarına, ruhi sarsıntılarına səbəb olurdu. Bu məqamda X. Natəvan ana-şair, şair-ana ehtizazını yaşayırdı. Onun lirikası isə aşiqməşuq çərçivəsindən çıxıb, ana-bala müstəvisinə keçirdi. Lakin qəzələ xas olan "xəyali-zülf", "fəraq", "vüsal", "qəmi-nihan", "hicran", "dilücan" kimi aşiqanə qəlib ifadələr hələ də öz yerində qalırdı.**

**(ardı növbəti sayımızda)**

***Vaqif Aslan***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR